# Dostoyevskinin “Karamazov qardaşları” romanı dini-fəlsəfi epopeya kimi



Məmməd Qocayev
*professor*

(Əvvəli ötən sayda)

## ZOSİMA ATA VƏ ONUN RAHİBLİK FƏLSƏFƏSİ

Zosimanın obrazı romanda xüsusilə vacib yer tutur. O, rus pravoslav dininin daşıyıcısı və dayağı kimi ilk növbədə Böyük inkvizitora qarşı qoyulmuşdur. Zosima ata ortodoksal xristianlığın nümayəndəsi və müdafiəçisi deyildir. O, kilsədə xidmət etmir, monastırda rahib kimi yaşayır. O sanki kilsəylə həyat arasında dayanmışdır və onun xidmətləri kilsə ideyalarını həyata və insanlara çatdırmaqdan ibarətdir. Ona görə də Zosima ata inkvizitordan fərqli olaraq din xadimi kimi deyil, canlı bir obraz, adi bir insan kimi təsvir olunur. Onun inamı da, ideyaları da insanın ruhi mahiyyətinə əsaslanır. Odur ki, onun diqqət mərkəzində olan insandır. O, Allahdan çox insandan danışır, onun aqibətini düşünür. Ona görə də Zosimanın təlimi dini təlim də olsa, insanın real mahiyyətinə istinad edir. Əgər onun ideyaları və tələbləri insanın imkanları xaricində olması təəssüratını oyadırsa, bu, ona görədir ki, Zosima ata Böyük inkvizitordan fərqli olaraq, insanın ötəri, maddi və praqmatik tələblərindən deyil, onun dərin ruhi mahiyyətindən və ruhi tələblərindən çıxış edir.

İnsan öz həyatında sırf gündəlik və məişət tələblərindən çıxış edir, amma bu o demək deyildir ki, insanın dərin ruhi mahiyyətini məişət qayğıları təşkil edir. Real həyat və məişət insanın ötəri tələblərini əks etdirir. Onun dərin ruhi tələblərini isə yalnız din və inam ödəmək iqtidarındadır. Zosima ata insanın bu dərin ruhi mahiyyətinə istinad edir. O, müqəddəs deyil, sadəcə olaraq insan qəlbinin bilicisidir. Zosima atanın mənəvi siması, onun insanlara təmənnasız məhəbbəti və qayğısı sanki adi və günahkar insanlar üçün bir nümunədir, inam nümunəsidir. Bu cür insanların varlığı ziddiyyətlər içində yaşayan adi insanlarda inamın qorunub saxlanmasına kömək edir. Bu cür insanlar olmasaydı, yer üzündə müqəddəs heç nə qalmazdı və inam tükənərdi. Zosima ata insanlar üçün İsa dininə inamın yaşaması üçün bir zəmanət idi.

Zosima ata çoxlu sayda dərdli insanlar görmüş, onlarla söhbət etmiş və onların narahat ruhunu, bədbəxtlik içində şübhəyə düşmüş qəlblərini mətinləşdirmiş və bu zavallıları imana qaytarmışdı. Zosima atanın sirli dostu ona öz ürəyini açır və deyir: “Hər bir kəs, öz günahlarından savayı, bütün başqalarının günahları üçün də məsuliyyət daşıyır”. Başqasının günahı müqabilində özünü günahkar hesab etmək o deməkdir ki, bütün insanlar qəlbən özlərini bir-birinin doğmaları hesab edirlər, özlərini başqalarına qarşı qoymurlar. Zosima ata inanır ki, elə bir zaman gələcək ki, insanlar vahid ailə halında yaşayacaqlar. Amma əvvəlcə onların bir-birindən təcrid olunması dövrü baş verəcəkdir. Yəni insanlar ayrılıqdan, eqoizmdən keçərək dinə və birliyə qayıdacaqlar. Ona görə də bu qlobal ayrılıq və eqoizm dövründə o birlik bayrağını və ideyasını qoruyub saxlamaq lazımdır. Zosima ata məhz bu ideyanın qoruyucularındandır.

Zosima atanın ideyaları, onun Alyoşa tərəfindən yazılmış qissəsində öz əksini tapmışdır. Təsadüfi deyil ki, romanda Zosima atanın həyatından bəhs edən “Rus rahibi” kitabı Böyük inkvizitor haqqındakı “Pro və contra” kitabından sonra gəlir. İnkvizitorun və İvanın ideyalarına qarşı Zosima atanın və Alyoşanın ideyaları qoyulur. Böyük inkvizitor doxsanyaşlı, ucaboylu möhtəşəm və güclü bir insan kimi təsvir olunur. Zosima ata isə onun əksinə olaraq zəif, cılız, gücdən düşmüş bir qocadır. Lakin bu qocanın gücü onun insanlara olan intehasız məhəbbətindədir. İnkvizitor insanlara onların öz naminə qayğı göstərir. Zosima ata isə insanları Allahın naminə sevir, Allahın adı ilə onlara qayğı göstərir. İnkvizitor insanları gündəlik çörəklə təmin etmək barəsində düşünürkən, Zosima ata onların ruhunun qidası olan inam barədə düşünür. İnkvizitor özünü Allahın yerinə qoyub bütün ixtiyarı öz əlinə alır, Zosima ata isə insanları sevməkdən savayı ixtiyar tanımır.

Zosima ata ölüm ayağında dostlarını ətrafına toplayıb onlarla söhbət edir. O, onlara deyir ki, mən sizi qəbirdən də sevəcəyəm, o dünyadan da sevmək olar, orada da məhəbbət tükənib yox olmur. Zosima atanın fikirlərindən nümunələr: “məhəbbətin mütiliyi dəhşətli qüvvədir”, “insanları günahları içində də sevin”, “xüsusilə də uşaqları sevin, çünki onlar mələklər kimi günahsızdırlar”, “hər şey okean kimidir, hər şey axır və bir-birinə qarışır”, “özünü hamının günahı üçün müqəssir hesab elə”, “bizim fikir və duyğularımızın kökləri burada deyil, başqa dünyalardadır”, “insan özü kimisinin hakimi ola bilməz”, “mömin ölüb gedir, amma onun ziyası əbədi olaraq bu dünyada qalır”, “cəhənnəm artıq sevə bilməməyin əzabıdır”, “öz kinli qüruru ilə qidalanmaq, səhradakı ac insanın öz qanını sorması kimi bir şeydir!. Zosima atanın nəsihətlərini qeydə almaqla Dostoyevski dünyanın yeni mənəvi-etik mənzərəsini yaradır. Ənənəvi insan-cəmiyyət münasibətləri əsasında qurulmuş dünya əvəzinə yazıçı yeni, insan-Allah münasibətlərinə əsaslanan dünyanı təsvir edir. İnsan adi, təbii varlıq olaraq qeyri-təbii, ruhi qanunlar əsasında yaşamalıdır və yaşayır. İnsanlar Əyyub peyğəmbər kimi köhnə fəlakətləri və keçmiş faciələri unutmağı bacarmalıdırlar. Yalnız onda öz iradəni Allahın iradəsinə tabe etmiş olarsan. Zosima atanın həyat fəlsəfəsi ölümə məhkum insanlar üçün deyil, əbədi yaşar ruh üçün yaradılmışdır. Beləliklə, Böyük inkvizitorun və Zosima atanın həyat fəlsəfəsini qarşı-qarşıya qoyaraq, Dostoyevski Qərb katolisizminin insanın bu dünyadakı fani həyatı barəsində, pravoslav rus dininin isə o dünyadakı əbədi ruhi həyat barəsində düşündüyünü vurğulayır.

## “KARAMAZOV QARDAŞLARI”NDA QADIN XARAKTERLƏRİ

*(KATERİNA İVANOVNA VƏ QRUŞENKA)*

Dostoyevskinin qadın obrazlarını iki əsas qrupa bölmək olar. Onlardan biri qəzəbli, çılğın təbiətli, heç cür öz vəziyyəti ilə barışmaq istəməyən, dişi pələngə bənzəyən qadınlardır. Buraya Dunya Raskolnikova, Nastasya Filippovna, Liza Tuşina, Katerina İvanovnanı aid etmək olar. Digəri yumşaq, həlim təbiətli, sanki həyatını kimin üçünsə qurban vermək üçün yaranmış rahibə xislətli qadınlardır. Buraya Sonya Marmeladovanı, Daşa Şatovanı (“Şeytanlar”), Sofya Andreyevnanı (“Yeniyetmə”) aid etmək olar. Birincilər bir qayda olaraq dinə münasibətdə bir qədər etinasız və məğrur təbiətli qadınlardır, müəyyən mənada milli zəmindən ayrı düşmüş ali təbəqəyə mənsubdurlar. İkincilər xalqın içindən çıxmış, milli zəminə bağlı olan, müti təbiətli, dindar qadınlardır. Burada xüsusilə iki Sofyalar - Sofya Semyonovna (“Cinayət və cəza”) və Sofya Andreyevna (“Yeniyetmə”) - seçilirlər. Bu tipli qadın qəhrəmanlarına nə rus, nə də dünya ədəbiyyatında rast gəlmək mümkündür. Onlar sanki özlərini kiminsə naminə qurban vermək, kiminsə naminə yaşamaq üçün dünyaya gəlmişlər. Dostoyevskinin bu tip qadınları bir qayda olaraq qatı dindardırlar və hər an istənilən cəfaya dözməyə hazırdırlar. Onları tam mənada altruist adlandırmaq olar, çünki onlarda eqoizm deyilən xüsusiyyətdən əsər-əlamət yoxdur. Başqa birisinə xidmət etmək naminə onlar hətta öz namuslarından belə keçməyə hazırdırlar: Sonya Marmeladova yaxınlarını aclıqdan və səfalətdən xilas etmək üçün küçəyə düşür, Sofya Andreyevna isə nikahını pozaraq Versilovla yaşayır. Yəni hər iki halda özü barədə düşünmək bu qadınların ağlına belə gəlmir.

“Karamazov qardaşları” romanındakı qadınlar (Katerina İvanovna və Qruşenka) başqa tip qadınlardır. Hərçənd əsərin sonunda Qruşenka özünü Mityanın yolunda qurban verməyə, onun dalınca Sibirə yollanmağa hazır olur. Mitya Karamazovun əvvəlcə Katerinanı, sonra isə Qruşenkanı sevməsi bir növ onun milli zəminə qayıtması, milli ruha və pravoslav dininə tapınması kimi başa düşülə bilər. Raskolnikov da Dunyayla Sonyadan ikincisini seçdi. Knyaz Mışkin də seçimə gələndə Aqlayanı deyil, Nastasya Filippovnanı seçdi. Nikolay Stavrogin Liza Tuşinanı deyil, məhz Daşanı seçmişdi və onunla birlikdə mühacirətə getmək fikrindəydi. Eynilə də “Yeniyetmə” romanında Versilov Katerina Axmakovadan başlayıb, sonda Sofya Andreyevnanı seçir və nəticədə birdəfəlik onun yanına qayıdır. Bu, rus ziyalı təbəqəsindən olan qəhrəmanın yad ideallara aludə olaraq, öz doğma zəminindən ayrı düşməsi, bəlalara düçar olaraq, nəhayət, ata evinə, ana hüzuruna, doğma ocağa qayıtması kimi bir şeydir. Mitya Karamazov da general qızı Katerina İvanovnanı sevdi, lakin sonra onu atıb Qruşenkanı seçdi. Bu da onunçün əbədi bir seçim oldu.




Dostoyevski yaradıcılığında qadın müəyyən mənada vətəni, milli zəmini, milli ruhu təmsil edir. Qadın hər şeydən əvvəl analıq rəmzidir. Dostoyevskinin bu tipli qadınlarının xarakterində məhz bir analıq mahiyyəti, analıq həsrəti gizlənmişdir. Lakin onlar bu və ya digər səbəbdən bu təbii həsrəti reallaşdıra bilmədiklərindən bəlalara düçar olurlar. Qadın özünü ailədə ana kimi təsdiq edə bilməyəndə, özünü kiməsə qurban verməyi istəyir və bu istək bir növ analıq tələbinin özgələşmiş forması kimi təzahür tapır. Odur ki Sonya Marmeladovanın da, Daşa Şatovanın da, Aqrafena Aleksandrovnanın da analıq arzuları gözlərində qalmışdı. Ana olmaq üçün doğulmuş bu məxluqlarda güclü bir rəhmdillik ehtirası vardır. Onlar sevdikləri kişiləri sanki ana torpağa, vətənə, dinə qaytarmaq istəyirlər, mənəvi cəhətdən haqqa tapındırmaq istəyirlər.

*Davamı səhifə 17-də*

(Əvvəli səhifə 16-da)

# Dostoyevskinin “Karamazov qardaşları” romanı dini-fəlsəfi epopeya kimi

Bu proses hələ Puşkinin “Yevgeni Onegin” əsərində Tatyana Larina ilə Yevgeni Oneginin münasibətlərində öz təzahürünü tapmışdı. Sonda Onegin Tatyanın ayağına gəlir, onun qarşısında diz çöküb yalvarır. Bu, məhz şəxsiyyətin milli zəminə qayıtması, onun doğma ruha tapınması deməkdir. Bu mənəvi qayıdış bütün çalarları və faciələri ilə birlikdə ən geniş şəkildə məhz Dostoyevski yaradıcılığında öz əksini tapmışdır.

“Karamazov qardaşları” romanındakı qadın obrazları - həm Katerina İvanovna, həm də Qruşenka - olduqca mürəkkəb daxili aləmə və xarakterə malik qadınlardır. Katerina İvanovna zadəgan silkinə mənsub general qızıdır. O, nisbətən xalqdan, milli zəmindən uzaq düşmüş bir xarakterdir. Ona görə də onda rus qadınına xas olan o fədakarlıq, o şəfqətlilik bir qədər təhrif olunmuş şəkildə təzahür edir. Onun gözəlliyində də bir soyuqluq, bir yadlıq, Mityanın qəlbini fəth edən, onun ixtiyarını və iradəsini əlindən alan bir güc vardır. Bu, məğrur gözəllikdir, kişinin qəlbini təlatümə gətirən, onu mübarizəyə səsləyən, onun qüruruna toxunan və qürurunu tərpədən gözəllikdir. Mitya Karamazov bu gözəllik qarşısında sarsılır, amma sınmır, onda bir rəqabət duyğusu və özünütəsdiq istəyi baş qaldırır. Onların bir-birinə olan məhəbbətində nəsə bir sarsıntı da vardır. Bu məhəbbət əzablı, qürura toxunan məhəbbətdir - bu da Mityada əks təsir və mübarizə əzmi yaradır.

Katerina İvanovnanın Mityaya olan məhəbbətində bir havadarlıq istəyi vardır. O, Mityanı xilas etmək istəyir və daim özünün bu humanist istəyini sevir. Yəni Mityaya qarşı olan məhəbbətində Katerina İvanovna daim özünütəsdiq axtarır. Əgər Mitya bir anlığa öz qüsurlarından və ziddiyyətlərindən xilas olaraq Alyoşa kimi mülayim xarakterli və müti bir insana çevrilsəydi, Katerina Nikolayevna o andaca ona olan marağını və məhəbbətini itirərdi. Çünki artıq burada özünütəsdiqə, öz şəfqətini göstərməyə yer qalmazdı. Deməli, Katerina İvanovnanın qəlbində rus qadınına xas olan güclü şəfqət duyğusu vardır, lakin bu duyğu başqa duyğularla, o cümlədən, qürur duyğusu ilə qarışmış və təhrifə uğramışdır. Onun şəfqətində eqoist bir istək - özünütəsdiq istəyi vardır. Ona görə də Katerina İvanovna Mityaya olan məhəbbətində sanki özünü axtarır və özünü sevir. Ona görə də Alyoşa Katerinanın gözəlliyi haqqında deyir ki, bu gözəllikdə elə bir şey vardır ki, onu sevməmək, ona vurulmamaq olmaz, amma eyni zamanda onu daim sevmək də mümkün deyil. Katerina İvanovnanın gözəlliyi məftun edən, alov kimi şölə saçaraq yandıran və göz qamaşdıran gözəllikdir. Bu cür gözəllik qarşısında məğrur kişi mənliyi sarsılır. Bu cür gözəllik onu sevəni sanki mübarizəyə səsləyir, onun qüruruna toxunur. Ona görə də məğrur Mitya Katerinanı sevməklə yanaşı, həm də ona nifrət edir. Sonra görəcəyik ki, o, Qruşenkaya məhəbbətində bir mərhəmlik, həlimlik, bir mütilik tapacaqdır və bu gözəllik qarşısında özünün bütün o kobud qürurunu itirəcək və sevdiyi qadının müti quluna çevriləcəkdir. Katerina İvanovnanın gözəlliyi isə sanki dağıdıcı, sarsıdıcı bir gücə malikdir. Ona görə də bu gözəllik elə ilk baxışdanca Mityanın qəlbini yaralayır, onun qürurunu sarsıdır - o, bu qadına vurulur. Katerina İvanovnanın gözəlliyində də, onun şəfqətində də nəsə şöhrətpərəstlik ehtirası vardır. Ona görə də o, Mityanı xilas etmək istəyir, məhkəmədə onun əleyhinə əvvəlcə şəhadət vermir, lakin Qruşenkanı görəndə, onda bir rəqabət duyğusu baş qaldırır və öz yeni şəhadətilə Mityanı məhv edir. Amma sonra, artıq Mitya məhkum olunandan sonra və həbsxanada olanda, Katerina İvanovna onun yanına gəlir və onu xilas etmək istədiyini bildirir. O elə hesab edir ki, məhz indi Mityanın ona böyük ehtiyacı var və onu sürgündən yalnız o xilas edə bilər. Burada Mityanın Amerikaya qaçmaq planı hazırlanır və bu işdə Katerina yaxından iştirak etmək istəyir, hərçənd anlayır ki, Mitya Amerikaya Qruşenkayla getmək istəyəcək. Bu da məğrur qəlbin istəyi, onun özünü təsdiqetmə məramıdır.

Qruşenka başqa tip qadındır və onun gözəlliyi də başqa tip gözəllikdir. Bu, məğrur, möhtəşəm, sarsıdıcı və yandırıcı gözəllik deyil, həlim, sakitləşdirici, isti, ana məhəbbəti kimi məlhəmli bir gözəllikdir. Onun gözəlliyində diqqəti çəkən xüsusiyyət məhz millilik, mərhəmlik, doğmalıqdır. Onun gözəlliyi məhz rus gözəlliyidir. Yeriyəndə ayaq səsləri eşidilmirdi. Onun bütün vücudunda və hərəkətlərində bir yumşaqlıq duyulurdu. Onun tünd sarışın saçları, şəvə kimi qapqara qaşları, bozumtul-mavi, ecazkar gözləri qarşısında laqeyd kişilər belə özlərini itirirdilər. Bu gözəlliyi bir dəfə görən kəs, onu artıq heç zaman unuda bilmirdi. Onun baxışlarında bir uşaqlıq ədası vardı. Alyoşa, bu safqəlbli rahib, bu gözəllikdə bir uşaq məsumluğunun olduğunu sezmiş və buna valeh olmuşdu. Eyni zamanda, bu gözəl vücud həm də qüvvətli və zəngin bir vücud idi, haradasa Miloslu Veneranın vücudunu andırırdı. Amma bu gözəllik sanki ani, ötəri, otuz yaşından sonra təravətini itirəcək bir gözəllik idi, yəni sırf rus qadınlarına xas olan bir gözəllik idi. Rus qadının gözəlliyinin bu ötəri xüsusiyyətini Dostoyevski “Yeniyetmə” romanında Sofya Andreyevnanın təsvirində geniş şərh etmişdir.

Qruşenkadakı məhz bu millilik, doğmalıq, zəminə bağlılıq Mityanı məftun eləmişdi. O da təsadüfi deyil ki, hadisələrin cərəyan etdiyi qəza şəhərinə Katerina İvanovna Peterburqdan, Qruşenka isə əyalətdən gəlmişdi. Bu iki gözəlin, iki rəqibin qarşılaşması səhnəsi çox maraqlı və ziddiyyətlərlə dolu səhnədir. Sanki iki dişi pələng əvvəlcə bir-birini yalayır, sonra isə caynaqlarını və iti dişlərini işə salırlar. Katerina İvanovna bir təmkinli zadəgan, Qruşenka isə, Mityanın dediyi kimi, “həyasızlıq çariçası”dır. Amma hər ikisində Mityaya sahib olmaq ehtirası vardır. Katerina İvanovna Alyoşaya deyir ki, əgər Mitya onu atıb bu həyasız qadınla evlənsə belə, mən onun dostu, bacısı, nəhayət, Allahı olacağam, o mənə daim səcdə edəcəkdir. Bu da Katerinanın xarakteri - sevdiyi kişinin Allahı olmaq ehtirası. Ona görə də Mityayla Katerinanın məhəbbətində xəstə, ağrılı, düşmənçiliyi andıran bir duyğu vardır. Atılmış Katerina bundan sonra özünün bədbəxt taleyinin seyrində bir təskinlik tapacaq və öz daxili, ruhi iztirablarından həzz alacaq. Hər iki qadının simasında qadınlıq, analıq mahiyyətinin təhrif olunduğunu və eybəcər hala salındığını görürük. Amma mahiyyət, qadınlıq mahiyyəti, Dostoyevskinin fikrincə, heç vaxt sonacan məhv olmur, itib-batmır, təhriflər və eybəcərliklər içində diri qalır, kül basmış köz kimi gizli-gizli yanır.

Qruşenkanın ziddiyyətləri, onun bəd xasiyyəti və bəd davranışı - bütün bunlar az qala məhv olmaqda olan qadınlıq və analıq heysiyyətinin üsyanıdır. Həyat ona qarşı ədalətsiz olmuşdur, indi də o, həyata qarşı ədalətsizdir, insanlara qarşı amansızdır. Amma bütün bunlar zahiri formadır, mahiyyət isə başqadır və bu mahiyyət, nəhayət, özünü əsl və fədakar məhəbbətdə büruzə verir. Nakam arzular Qrşenkanı qəzəbləndirmişdi, onun qəlbində insanlara qarşı inamsızlıq və nifrət oyatmışdı. “Məhəbbət qurtaran yerdə, nifrət başlayır” - bunu L.Tolstoyun qəhrəmanı Anna Karenina deyirdi. Qruşenkada da beləydi. Lakin həyat elə gətirdi ki, nifrət bitdi və nifrət qurtaran yerdə məhəbbət başladı. Qruşenka öz polyak sevgilisini atıb, Mityanı sevdi. Yəni onun da məhəbbəti yad yerlərdən doğma yerlərə qayıtdı. Mityanı sevdikdən sonra Qruşenkanın qəlbində bir təbəddülat baş verdi. O öz qəlbindəki bəd duyğulardan azad olmağa, saflaşmağa və hətta həyatını monastırda rahibə kimi başa vurmaq planları barədə düşünməyə başladı. Qruşenka əvvəllər günahı həyatda və insanlarda görürdü, onları ittiham edir və onlara nifrət edirdi. İndi isə o, həyata da, insanlara da bəraət qazandırır və yalnız özünü ittiham edir, özünün islahı barədə düşünür. Qruşenka məişət mövqeyindən dini mövqeyə adlayır və bu mövqedən ona insanlar da, özü də başqa cür görünür - özünü ittiham edərək, insanlara bəraət qazandırır. O, Mityaya




qoşulub buralardan çox-çox uzaqlara qaçmaq istəyir. Bu həm də özündən, öz keçmişindən qaçıb qurtulmaq istəyidir. Əgər o əvvəllər vücud etibarı ilə gözəl və güclü idisə, indi solğun çöhrəsi, qəmli baxışları onun mənəvi-ruhi gözəlliyindən və gücündən xəbər verir. Məhkəmə səhnəsində iki qadın, iki rəqib yenidən qarşılaşırlar. Birinci qarşılaşma zamanı, Alyoşanın yanında Qruşenka Katerina İvanovnanı onun əlini öpməklə təhqir etmişdi. İndi də Qruşenka Katerinanın üstünə düşür, onu ittiham edir, bununla da Katerinanı Mityanın əleyhinə şahidlik etməyə təhrik edir. Sonra artıq həbsxanada Mityayla görüşən Katerina ona deyir ki, biz bir-birimizin qəlbində daim sağalmaz bir yara kimi qalacağıq. İndi o, Mityanın ayaqlarına düşmək, onun əllərini öpmək üçün gəlib, onu öz Allahı hesab edərək səcdəyə gəlib, çünki bu qadının bütün iztirabları Mityayla bağlıdır, indi bu qadına qalan onun iztirablarıdır və o, bu iztirabları sonsuz bir məhəbbətlə sevir. Bu allahsız və imansız qalmış qəlbin çırpıntılarıdır. Onun qəlbində Allahın boş qalmış yerini Mitya tutmuşdur. Bu aristokrat qadın üçün milli ruha, dinə tapınmaqdan savayı nicat yolu qalmayıb. Bu anda Qruşenka kameraya daxil olur. Katerina ona sarı: “Məni bağışla!” deyir. Qruşenka isə ona belə cavab verir: “Kinliyik biz, anam, səninlə mən! Hər ikimiz kinliyik! Biz nə təhər bağışlaya bilərik?”. Bağışlamaq üçün qəlbin saflaşması, iztirablardan keçərək təzələnməsi, əzəli mahiyyətə qayıtması gərəkdir. Bu isə olsa-olsa uzaq gələcəkdə baş verə bilər. Hər iki qadın böyük iztirablar vasitəsilə mənəvi saflaşma yolunun əvvəlinə çatmışlar və məhəbbət əhvalatı da burada tamamlanır.